AZƏRBAYCAN
QİYMƏTLƏNDİRİCİLƏR
PALATASI

IVS 230 EHTİYATLAR

Nəzəri hissə - IVS 230 və IFRS tələbləri
Praktik hissə - işlənmiş qiymətləndirmə hesabatı,
Tapşırıq və testlər

Peşəkar qiymətləndiricilər üçün peşəkar təlim

TƏLİMİN QURULUŞU

Beş bölmə, iki saat

I	Ehtiyatlar niyə ayrıca standart tələb edir	4 slayd
II	IVS 230 - tətbiq sahəsi, dəyər bazaları, metodlar	8 slayd
III	IFRS tələbləri - IAS 2 və IFRS 3	9 slayd
IV	Tipik səhvlər və yoxlama siyahısı	4 slayd
V	İşlənmiş qiymətləndirmə hesabatı, tapşırıq və testlər	9 slayd

Praktik hissə nəzəri hissədən daha genişdir – buna səbəb var.

AZƏRBAYCAN
QİYMƏTLƏNDİRİCİLƏR
PALATASI

IVS 230 EHTİYATLAR

BÖLMƏ I

Ehtiyatlar niyə ayrıca standart tələb edir

Digər aktivlərdən dörd prinsipial fərq

ÇIXIŞ NÖQTƏSİ

Ehtiyat digər aktivlərdən nə ilə fərqlənir

Dörd fərq bütün metodologiyanı müəyyən edir

1 Dövriyyə aktivdir

Bir il ərzində satılır və ya istehlak olunur. Uzunmüddətli gəlir axını yaratmır - buna görə gəlir yanaşmasının klassik forması tətbiq edilmir.

2 Üç mərhələdə mövcuddur

Xammal, bitməmiş istehsal, hazır məhsul. Hər mərhələ üçün ayrı düstur tələb olunur.

3 Dəyəri əməliyyat siklindən asılıdır

Hazır məhsulun dəyəri satış qiymətindən, xammalınkı isə əvəzetmə dəyərindən çıxır. Eyni obyektin iki fərqli məntiqi.

4 Uçot və qiymətləndirmə fərqlənir

Mühasibat maya dəyəri ilə ölçür, qiymətləndirmə isə ədalətli dəyərlə. Fərq real və ölçülə biləndir.

ÇƏRÇİVƏ

Ehtiyatlara aid sənədlər

Qiymətləndirici hər ikisini bilməlidir - biri digərini əvəz etmir

QİYMƏTLƏNDİRMƏ

IVS 230	Ehtiyatlar - əsas standart
IVS 102	Dəyər bazaları
IVS 105	Yanaşmalar və metodlar
IVS 200	Müəssisələr - birləşmə kontekstində
AQP QS 15	Ehtiyatların qiymətləndirilməsi

MALİYYƏ HESABATLILIĞI

IAS 2	Ehtiyatlar – maliyyə üçün
IFRS 3	Biznes birləşmələri
IFRS 13	Ədalətli dəyərin qiymətləndirilməsi
IAS 41	Kənd təsərrüfatı məhsulu
IFRS 15	Müqavilə üzrə aktivlər

IAS 2 «necə uçota alınır» sualına cavab verir. IVS 230 «nə qədər dəyər» sualına. İkisi eyni rəqəmi vermir və verməməlidir.

AZƏRBAYCAN
QİYMƏTLƏNDİRİCİLƏR
PALATASI

IVS 230 EHTİYATLAR

BÖLMƏ II

Tətbiq sahəsi, dəyər bazaları və metodlar

IVS 230

Tətbiq sahəsi

Standart nəyi əhatə edir və nəyi əhatə etmir

ƏHATƏ EDİR

- Xammal və materiallar
- Bitməmiş istehsal
- Hazır məhsul
- Yenidən satış üçün alınmış mallar
- Ehtiyat hissələri - satış üçün
- Tikinti müqaviləsi üzrə obyektlər
- Əmtəə brokerlərinin ehtiyatları

ƏHATƏ ETMİR

Əsas vəsaitlərə aid ehtiyat hissələri	IVS 300
Bioloji aktivlər	IAS 41
Maliyyə alətləri	IVS 500
İstifadə üçün saxlanılan materiallar	əsas vəsait
Qeyri-maddi aktivlər	IVS 210
Satış üçün saxlanılan daşınmaz əmlak	IVS 400 / 410
İnvestisiya məqsədli əmlak	IVS 400

Sərhəd sualı: aktiv satış üçünmü saxlanılır, yoxsa istifadə üçün? Cavab təsnifatı müəyyən edir.

ƏSAS ANLAYIŞ

Üç mərhələ - üç fərqli məntiq

Ehtiyatın hansı mərhələdə olması metodu müəyyən edir

XAMMAL

Hələ istehsala daxil olmayıb

ƏVƏZETMƏ DƏYƏRİ

Bazarda eyni materialı almaq nə qədərə başa gəlir

→

BİTMƏMİŞ İSTEHSAL

İstehsal prosesindədir

SATIŞ QİYMƏTİ MİNUS

Tamamlama xərcləri, satış xərcləri və hər iki mərhələnin mənfəət payı

→

HAZIR MƏHSUL

Satışa hazırdır

SATIŞ QİYMƏTİ MİNUS

Satış xərcləri və yalnız satış səyinin mənfəət payı

Məntiq: aktiv satışa nə qədər yaxındırsa, dəyəri satış qiymətinə o qədər yaxındır.

IVS 230

Dəyər bazasının seçimi

Baza qiymətləndirmənin məqsədindən çıxır, ehtiyatın növündən deyil

Məqsəd	Dəyər bazası	Metod	Əsas
Biznes birləşməsi – PPA	Ədalətli dəyər	Müqayisəli satış (top-down)	IFRS 3 · IVS 230
Maliyyə hesabatlılığı - dövri	Maya ↔ NRV-nin aşağısı	Maya hesablaması və NRV (Net Realizable Value) testi	IAS 2
Girov və kredit təminatı	Bazar dəyəri	Müqayisəli satış, məhdud ekspozisiya	IVS 102
Müflisləşmə və məcburi satış	Ləğvetmə dəyəri	Məcburi satış ssenarisi	IVS 102
Sığorta	Əvəzetmə dəyəri	Cari əvəzetmə xərci	Müqavilə şərtləri
Vergi məqsədləri	Qanunvericiliyə görə	Milli tələblər	Vergi Məcəlləsi
Məhkəmə ekspertizası	Qərardada görə	Suala uyğun	Prosessual qanunvericilik

Ən çox səhv: qiymətləndirici bütün hallarda «ədalətli dəyər» yazır. Ədalətli dəyər IFRS anlayışıdır və yalnız maliyyə hesabatlılığı kontekstində mənalıdır. «Alış qiymətinin bölüşdürülməsi» (Purchase Price Allocation - PPA) bir şirkət digərini satın aldıqda (biznesin birləşdirilməsi zamanı), ödənilən ümumi alış məbləğinin hədəf şirkətin balansındakı bütün aktiv və öhdəliklər arasında onların cari bazar dəyərinə (ədalətli dəyər) uyğun olaraq paylanması prosesidir.

ƏSAS METOD

Müqayisəli satış metodu - top-down

Satış qiymətindən başlayıb geri hesablama

Gözlənilən satış qiyməti	başlanğıc nöqtə
− Tamamlama xərcləri	*yalnız bitməmiş istehsalda*
− Satış və bölüşdürmə xərcləri	*komissiya, daşınma, saxlanma*
− Tamamlama səyinin mənfəət payı	*yalnız bitməmiş istehsalda*
− Satış səyinin mənfəət payı	*bütün hallarda*
= EHTİYATIN ƏDALƏTLİ DƏYƏRİ	

Mənfəət payı alıcının hələ görməli olduğu işə aiddir. Satıcının artıq gördüyü iş dəyərin içindədir və çıxılmır.

XAMMAL

Əvəzetmə dəyəri - nə üçün fərqli metod

Xammal satılmır, istehlak olunur

MƏNTİQ

Xammalın müstəqil satış qiyməti yoxdur - o, istehsala daxil olur.

Alıcı üçün onun dəyəri - eyni materialı bazardan almaq nə qədərə başa gələr ilə ölçülür.

DÜSTUR

Cari əvəzetmə dəyəri

=

Bazar qiyməti + gətirilmə xərcləri

Qiymətləndirmə tarixinə, faktiki tədarük şərtləri ilə

DİQQƏT TƏLƏB EDƏN HALLAR

Uzun tədarük müddəti
Qiymət artımı gözlənilirsə, cari bazar qiyməti aşağı qiymətləndirmə verir

Xüsusi sifariş materialı
Bazar qiyməti yoxdur - istehsalçıdan sorğu tələb olunur

Köhnəlmiş və hərəkətsiz qalıq
Əvəzetmə dəyəri deyil, realizə dəyəri tətbiq edilir

Valyuta və gömrük
İdxal materialında kurs və rüsum daxil edilməlidir

IVS 230

Xüsusi diqqət tələb edən ehtiyatlar

Ehtiyat növü	Xüsusiyyəti	Qiymətləndirmə yanaşması
Köhnəlmiş və hərəkətsiz	Normal dövriyyədən çıxıb	Realizə dəyəri, endirimli satış ssenarisi ilə
Mövsümi məhsul	Dəyər ilin dövrünə görə dəyişir	Qiymətləndirmə tarixinin mövsümü nəzərə alınır
Yaşlandırılan məhsul	Şərab, konyak, pendir - yaş dəyəri artırır	Yetkinlik dərəcəsinə görə mərhələli qiymətləndirmə
Əmtəə brokerinin ehtiyatı	Fəal bazarı var	Ədalətli dəyər minus satış xərcləri, IAS 2, 3(b)
Kənd təsərrüfatı məhsulu	Yığım anında tanınır	IAS 41 üzrə ədalətli dəyər, sonra IAS 2
Tikinti müqaviləsi obyekti	Uzunmüddətli müqavilə	IFRS 15, tamamlanma dərəcəsi
Ehtiyat hissələri	Satış üçünmü, istifadə üçünmü	Təyinat müəyyən edilir, IVS 230 və ya IVS 300
Konsiqnasiya malı	Mülkiyyət ötürülməyib	Kimin balansındadır, hüquqi təhlil tələb olunur

Konsiqnasiya və ehtiyat hissələri ən çox mübahisə doğuran iki kateqoriyadır. Hər ikisində sual hüquqidir, metodoloji deyil.

PRAKTİK MƏSƏLƏ

Köhnəlmiş və hərəkətsiz ehtiyatın müəyyən edilməsi

Uçot bunu göstərmir - qiymətləndirici özü aşkarlamalıdır

DÖVRİYYƏ TESTİ

Anbarda qalma müddəti	Vəziyyət	Tipik düzəliş	Əsaslandırma
0–3 ay	Normal dövriyyə	düzəliş yoxdur	Satış tempi ilə uyğun
3–6 ay	Yavaş hərəkət	5–15 %	Realizə müddəti uzanır
6–12 ay	Hərəkətsiz	20–40 %	Endirimlə satış tələb olunur
12–24 ay	**Köhnəlmiş**	**40–70 %**	**Yalnız kütləvi endirimlə**
24 aydan çox	**Praktik olaraq satılmır**	**70–95 %**	**Utilizasiya və ya təkrar emal**

Düzəlişin əsaslandirilmasi - hesabatda göstərilməli olanlar

Anbar hesabatından dövriyyə göstəricisi - son 12 ayda satış tarixçəsi, məhsulun texniki köhnəlməsi barədə məlumat, müqayisə üçün endirimli satış nümunələri, sifarişçinin utilizasiya siyasəti

AZƏRBAYCAN
QİYMƏTLƏNDİRİCİLƏR
PALATASI

IVS 230 EHTİYATLAR

BÖLMƏ III

IFRS Tələbləri

IAS 2 və IFRS 3 – İki fərqli hesablama

IAS 2

Uçot üçün hesablama prinsipi

Ehtiyatlar maya dəyəri ilə xalis satış dəyərinin aşağısı ilə hesablanır

MAYA DƏYƏRİ

Alış qiyməti + emal xərcləri + hazır vəziyyətə gətirmə xərcləri

və ya

XALİS SATIŞ DƏYƏRİ (NRV)

Gözlənilən satış qiyməti − tamamlama xərcləri − satış xərcləri

Uçot dəyəri = minimum (maya dəyəri ; NRV)

MAYA DƏYƏRİNƏ DAXİL EDİLMİR

Normadan artıq itki
material, əmək və istehsal itkilərinin anormal hissəsi

Saxlanma xərcləri
növbəti mərhələ üçün zəruri olmadıqda

İnzibati xərclər
hazır vəziyyətə gətirməyə aid olmayan

Satış xərcləri
həmişə xərc kimi tanınır

IFRS 3

Biznes birləşməsində ehtiyatlar

Alınan ehtiyat ədalətli dəyərlə tanınır - satıcının uçot dəyəri ilə deyil

IFRS 3 tələb edir ki, alınan bütün müəyyən edilə bilən aktivlər alınma tarixinə ədalətli dəyərlə ölçülsün. Ehtiyat istisna deyil və məhz burada qiymətləndirici cəlb olunur.

ÜÇ MƏRHƏLƏ ÜZRƏ DÜSTURLAR

HAZIR MƏHSUL	Satış qiyməti − satış xərcləri − satış səyinin mənfəət payı
BİTMƏMİŞ İSTEHSAL	Hazır məhsulun satış qiyməti − tamamlama xərcləri − satış xərcləri − tamamlama səyinin mənfəət payı − satış səyinin mənfəət payı
XAMMAL	Cari əvəzetmə dəyəri

Xammalda mənfəət payı çıxılmır - çünki alıcı hələ heç bir dəyər yaratmayıb və satıcı da yaratmayıb.

ƏN ÇƏTİN ELEMENT

Mənfəət payının hesablanması

Ümumi mənfəət marjası iki mərhələ arasında bölünür

Prinsip: alıcı yalnız öz görəcəyi işə görə mənfəət gözləyir. Satıcının artıq gördüyü iş qiymətin içindədir və ödənilir.

BÖLGÜ ÜSULLARI

Üsul	Necə hesablanır	Nə vaxt tətbiq edilir
Xərc nisbətinə görə	Mərhələnin xərci ÷ ümumi xərc × ümumi mənfəət	Ən geniş yayılmış - xərc uçotu mövcud olduqda
Sahə praktikasına görə	Satış funksiyasının tipik marjası – benchmark (müqayisə meyarı)	Xərc uçotu detallı olmadıqda
Müstəqil distributor marjası	Bazarda distributorun tətbiq etdiyi marja	Satış şəbəkəsi ayrıca fəaliyyət göstərdikdə
Sifarişçinin daxili modeli	Şirkətin öz bölgü metodikası	Sənədləşdirilibsə və ardıcıl tətbiq olunursa

Seçilmiş üsul hesabatda göstərilməli və əsaslandırılmalıdır. Üsulun dəyişməsi nəticəni 10–20 % dəyişə bilər və bu, həssaslıq təhlilinə daxil edilir.

KRİTİK FƏRQ

IAS 2 və IFRS 3 - eyni ehtiyatlar, iki fərqli rəqəm

Bu fərqi anlamamaq PPA işində ən ağır səhvdir

Meyar	IAS 2 — dövri uçot	IFRS 3 — birləşmə tarixinə
Qiymətləndirmənin əsası	Maya dəyəri ↔ NRV-nin aşağısı	Ədalətli dəyər
Çıxış nöqtəsi	Faktiki çəkilmiş xərclər	Gözlənilən satış qiyməti
Mənfəət elementi	Yoxdur - mayaya daxil edilmir	Var - satış və tamamlama səyi üzrə çıxılır
Hazır məhsul	Maya dəyəri	Satış qiyməti minus satış xərci və mənfəət payı
Xammal	Alış qiyməti	Cari əvəzetmə dəyəri
Nəticə	**Adətən daha aşağı**	**Adətən daha yüksək - «step-up» yaranır**
Kim hesablayır	**Mühasibat**	**Qiymətləndirici**

Step-up satışdan sonra maya dəyəri kimi xərcə düşür və alıcının ilk rüblərdəki marjasını azaldır. Bu, mühasibat effektidir - qiymətləndirici onu hesabatda izah etməlidir.

NƏTİCƏ

Step-up effekti və onun izahı

Alıcı üçün gözlənilməz olmamalıdır

1	**Qiymətləndirmə tarixi**	Ehtiyat ədalətli dəyərlə tanınır. Uçot dəyərindən yüksəkdir - fərq step-up adlanır.
2	**Satış dövrü**	Ehtiyat satıldıqca artırılmış dəyər maya dəyəri kimi xərcə düşür.
3	**Marja effekti**	İlk 1–2 rübdə brutto marja süni azalır. Bu, əməliyyat pisləşməsi deyil.
4	**Normallaşma**	Ehtiyat tam dövr etdikdən sonra marja normal səviyyəyə qayıdır.

Hesabatda mütləq göstərilir: step-up məbləği, gözlənilən dövriyyə müddəti və marjaya təsirin təxmini müddəti.

IAS 2

Xalis satış dəyəri testi, praktik nümunə

Hər ehtiyat vahidi üçün ayrıca aparılır

Mövqe	Maya dəyəri	Satış qiyməti	Tamamlama	Satış xərci	NRV	Uçot dəyəri	Silinm
Məhsul A 1 200 ədəd	48 000	62 000	—	3 100	58 900	48 000	—
Məhsul B 800 ədəd	36 000	38 000	—	1 900	36 100	36 000	—
Məhsul C 450 ədəd	27 000	26 000	—	1 300	24 700	24 700	2 300
Yarımfabrikat D	19 500	31 000	9 800	1 550	19 650	19 500	—
Yarımfabrikat E	14 200	19 000	6 400	950	11 650	11 650	2 550
CƏMİ	**144 700**	**176 000**	**16 200**	**8 800**	**150 000**	**139 850**	**4 850**

NƏTİCƏ

İki mövqedə NRV maya dəyərindən aşağıdır. Silinmə 4 850 AZN, dövrün xərcinə yazılır.

DİQQƏT

Test mövqe üzrə aparılır, cəmi üzrə deyil. Cəmdə NRV 150 000 > maya 144 700 olsa da, iki mövqedə silinmə var.

AZƏRBAYCAN
QİYMƏTLƏNDİRİCİLƏR
PALATASI

IVS 230 EHTİYATLAR

BÖLMƏ IV

Tipik səhvlər və yoxlama siyahısı

Palatanın yoxlama siyahısından

PRAKTİKA

Ehtiyat hesabatlarında ən çox rast gəlinən səhvlər

№	Səhv	Nəticəsi	Düzgün yanaşma
1	Uçot dəyəri ədalətli dəyər kimi təqdim edilir	PPA-da step-up itir, qudvil şişir	Üç mərhələ üzrə ayrıca hesablama
2	Mənfəət payı çıxılmır	Hazır məhsul 10–20 % şişir	Satış səyinin marjası müəyyən edilir
3	Mənfəət payı tam çıxılır	Dəyər süni azalır	Yalnız qalan səyə aid hissə
4	Köhnəlmiş qalıq aşkarlanmır	Dəyər real olmayan səviyyədə	Dövriyyə testi aparılır
5	NRV testi cəmi üzrə aparılır	Silinmə gizlənir	Mövqe üzrə test
6	Xammal alış qiyməti ilə götürülür	Qiymət dəyişməsi nəzərə alınmır	Cari əvəzetmə dəyəri
7	Konsiqnasiya malı daxil edilir	Başqasının aktivi qiymətləndirilir	Mülkiyyət hüququ yoxlanılır
8	Anbar inventarizasiyası aparılmır	Faktiki qalıq təsdiqlənmir	Baxış və ya seçmə yoxlama

Birinci və ikinci səhvlər birlikdə PPA-da ən böyük təhrifi yaradır: ehtiyat aşağı, qudvil isə yüksək göstərilir.

HAZIRLIQ

Sifarişçidən tələb olunan məlumat

İşə başlamazdan əvvəl toplanır

Ehtiyat registri
Mövqe üzrə: kod, ad, miqdar, ölçü vahidi, uçot dəyəri, anbar

Satış qiymətləri
Cari qiymət siyahısı və son 6 ayın faktiki satış qiymətləri

Satış xərcləri
Komissiya, daşınma, saxlanma, qablaşdırma - faiz və ya məbləğ

Tamamlama xərcləri
Bitməmiş istehsalın tamamlanması üçün qalan xərc

Köhnəlmiş qalıq siyahısı
Şirkətin öz təsnifatı — varsa

Dövriyyə hesabatı
Son 12 ay üzrə hər mövqenin daxilolma və satış hərəkəti

Maya dəyəri strukturu
Material, əmək, üstəlik xərclər üzrə bölgü

Mənfəət marjası
Sahə üzrə brutto və əməliyyat marjası, son 2–3 il

İnventarizasiya aktı
Sonuncu inventarizasiyanın nəticəsi və tarixi

Mülkiyyət sənədləri
Konsiqnasiya, girov, üçüncü şəxsin malı barədə məlumat

Məlumat natamam olduqda xüsusi fərziyyə qoyulur və hesabatda açıqlanır.

NƏZARƏT

Hesabat təqdim edilməzdən əvvəl yoxlanılmalı 18 bənd

- ☐ Qiymətləndirmə tapşırığı və dəyər bazası açıq göstərilib
- ☐ Hər mərhələ üçün düzgün düstur tətbiq edilib
- ☐ Satış qiymətlərinin mənbəyi göstərilib
- ☐ Tamamlama xərcləri sifarişçidən alınıb və yoxlanılıb
- ☐ Dövriyyə testi aparılıb
- ☐ NRV testi mövqe üzrə aparılıb
- ☐ Mülkiyyət hüququ yoxlanılıb, konsiqnasiya (malları satış məqsədilə vasitəçiyə verilməsi) istisna edilib
- ☐ Həssaslıq təhlili aparılıb
- ☐ Ehtimal və məhdudiyyətlər göstərilib
- ☐ Ehtiyatın üç mərhələ üzrə bölgüsü aparılıb
- ☐ Mənfəət payının bölgü üsulu göstərilib və əsaslandırılıb
- ☐ Satış xərclərinin faizi əsaslandırılıb
- ☐ Xammal üçün cari əvəzetmə dəyəri istifadə edilib
- ☐ Köhnəlmiş qalıq ayrıca göstərilib və düzəliş əsaslandırılıb
- ☐ İnventarizasiya nəticəsi ilə tutuşdurma aparılıb
- ☐ Step-up məbləği hesablanıb və izah edilib
- ☐ Uçot dəyəri ilə fərq izah edilib
- ☐ Nəticə aralıqla və ya dəqiqlik səviyyəsi ilə verilib

Təsnifat xəritəsi

Obyekt	Təsnifat	Qiymətləndirmə məntiqi
Mağazada satılan mallar	Ehtiyat, hazır məhsul	Satış qiyməti minus satış xərcləri minus satış səyinin mənfəət payı
Tikilməkdə olan, satış üçün mənzillər	Ehtiyat, bitməmiş istehsal	Satış qiyməti minus tamamlama xərcləri minus satış xərcləri minus iki mənfəət payı
Tamamlanmış, satılmamış mənzillər	Ehtiyat, hazır məhsul	Hazır məhsul düsturu, portfel düzəlişi ilə (maya dəyəri və ya NRV xalis satış dəyəri)
İnkişaf və satış üçün alınmış torpaq	Ehtiyat	Layihənin mərhələsinə görə
İcarəyə verilmək üçün saxlanılan mənzillər	İnvestisiya əmlakı, IAS 40	Ədalətli dəyər və ya maya dəyəri modeli
Öz istifadəsi üçün saxlanılan obyekt	Əsas vəsait, IAS 16	Bazar dəyəri və ya əvəzetmə dəyəri
İstifadədən çıxarılıb satışa qoyulan əsas vəsait	IFRS 5, ehtiyat deyil	Balans dəyəri ilə satış xərcləri çıxılmış ədalətli dəyərin aşağısı
Konsiqnasiya malı	Mülkiyyətçinin aktivi	Anbarda olması aidiyyət yaratmır

AZƏRBAYCAN
QİYMƏTLƏNDİRİCİLƏR
PALATASI

IVS 230 EHTİYATLAR

BÖLMƏ V

İşlənmiş qiymətləndirmə hesabatı, tapşırıq və testlər

«AzMetal» MMC - biznes birləşməsi üçün PPA

Qiymətləndirmə tapşırığı

Element	Məzmun
Sifarişçi	«AzHolding» ASC - alıcı tərəf
Qiymətləndirmə obyekti	«AzMetal» MMC-nin ehtiyatları - metal məmulatların istehsalı
Qiymətləndirilən hüquq	Tam mülkiyyət hüququ
Qiymətləndirmənin məqsədi	Biznes birləşməsində alınma qiymətinin bölüşdürülməsi (PPA)
Nəzərdə tutulan istifadə	Maliyyə hesabatlılığı - IFRS 3
Dəyər bazası	Ədalətli dəyər - IFRS 13
Qiymətləndirmə tarixi	31 dekabr 2025-ci il - nəzarətin əldə edildiyi tarix
Hesabat tarixi	12 fevral 2026-cı il
Valyuta	Azərbaycan manatı
Tətbiq edilən standartlar	IVS 230, IVS 102, IVS 105, IFRS 3, IFRS 13, AQP QS 15
İşin əhatə dairəsi	Anbara baxış aparılıb, seçmə inventarizasiya ilə, registrin təhlili

Qiymətləndirmə obyektinin təsviri

Uçot məlumatı 31.12.2025

Kateqoriya	Mövqe sayı	Uçot dəyəri, AZN	Payı	Anbar
Xammal və materiallar	142	1 200 000	34,3 %	Anbar №1 Sumqayıt
Bitməmiş istehsal	38	850 000	24,3 %	İstehsal sahəsi
Hazır məhsul	67	1 450 000	41,4 %	Anbar №2 Sumqayıt
CƏMİ	**247**	**3 500 000**	**100,0 %**	-

MƏHSUL PROFİLİ

Metal profil, armatur, tikinti konstruksiyaları.
Orta istehsal dövrü, 18 gün.
Orta ehtiyat dövriyyəsi, 74 gün.

BAXIŞ NƏTİCƏSİ

08.01.2026 tarixdə anbarlara baxış aparılıb.
Seçmə inventarizasiya, 24 mövqe.
Uçot ilə fərq 0,4 %, əhəmiyyətsiz.

Giriş göstəriciləri və ehtimallar

Hər göstəricinin mənbəyi göstərilir

Göstərici	Dəyər	Mənbə
Hazır məhsulun satış qiyməti	2 000 000 AZN	Sifarişçinin qiymət siyahısı, son 6 ayın faktiki satışları ilə yoxlanılıb
Bitməmiş istehsalın tamamlanmış satış qiyməti	1 300 000 AZN	Eyni mənbə, texnoloji xəritə üzrə çıxış həcmi
Satış və bölüşdürmə xərcləri	satışın 5,0 %-i	2024–2025 maliyyə hesabatları, faktiki xərc nisbəti
Tamamlama xərcləri	260 000 AZN	İstehsal şöbəsinin hesablaması, texnoloji xəritə
Brutto mənfəət marjası	24,0 %	Son 3 ilin orta göstəricisi
Mənfəətin bölgüsü, satış səyi	ümumi marjanın 25 %-i	Xərc nisbəti üsulu, satış funksiyasının xərc payı
Mənfəətin bölgüsü, tamamlama səyi	ümumi marjanın 20 %-i	Eyni üsul, qalan istehsal mərhələsinin payı
Xammalın cari bazar qiyməti	1 235 000 AZN	Tədarükçülərdən sorğu, 3 kommersiya təklifi

Mənfəətin bölgüsü xərc nisbəti üsulu ilə aparılıb: satış funksiyası ümumi xərcin 25 %-ni, qalan istehsal mərhələsi 20 %-ni təşkil edir.

Hazır məhsulun qiymətləndirilməsi

Düstur: satış qiyməti − satış xərcləri − satış səyinin mənfəət payı

Addım	Hesablama	Məbləğ, AZN
Gözlənilən satış qiyməti	Qiymət siyahısı üzrə	2 000 000
Satış və bölüşdürmə xərcləri	2 000 000 × 5,0 %	(100 000)
Ümumi brutto mənfəət	2 000 000 × 24,0 %	480 000
Satış səyinin mənfəət payı	480 000 × 25,0 %	(120 000)
Ədalətli dəyər	**2 000 000 − 100 000 − 120 000**	**1 780 000**
Uçot dəyəri	Registr üzrə	1 450 000
STEP-UP	**1 780 000 − 1 450 000**	**+330 000**

Diqqət: ümumi marjanın yalnız 25 %-i çıxılır. Qalan 75 % satıcının artıq gördüyü istehsal işinə aiddir və alıcı ona görə ödəyir.

Bitməmiş istehsalın qiymətləndirilməsi

Dörd element çıxılır, iki mərhələnin mənfəət payı daxil

Addım	Hesablama	Məbləğ, AZN
Tamamlanmış məhsulun satış qiyməti	Texnoloji xəritə üzrə	1 300 000
Tamamlama xərcləri	İstehsal şöbəsinin hesablaması	(260 000)
Satış və bölüşdürmə xərcləri	1 300 000 × 5,0 %	(65 000)
Ümumi brutto mənfəət	1 300 000 × 24,0 %	312 000
Tamamlama səyinin mənfəət payı	312 000 × 20,0 %	(62 400)
Satış səyinin mənfəət payı	312 000 × 25,0 %	(78 000)
Ədalətli dəyər	**1 300 000 − 260 000 − 65 000 − 62 400 − 78 000**	**834 600**
Uçot dəyəri	Registr üzrə	850 000
STEP-DOWN	**834 600 − 850 000**	**(15 400)**

Burada dəyər uçot dəyərindən aşağı çıxdı, step-up həmişə müsbət olmur.

Xammalın qiymətləndirilməsi

Cari əvəzetmə dəyəri, mənfəət payı çıxılmır

Material qrupu	Miqdar	Cari bazar qiyməti	Gətirilmə xərci	Əvəzetmə dəyəri	Uçot dəyəri
Metal lövhə	420 ton	1 480 AZN/ton	+5,0 %	652 680	635 000
Armatur poladı	280 ton	1 320 AZN/ton	+5,0 %	388 080	378 000
Profil boru	95 ton	1 610 AZN/ton	+5,0 %	160 598	154 000
Köməkçi materiallar	—	—	—	100 642	100 000
Köhnəlmiş qalıq	**—**	**realizə dəyəri**	**—**	**23 450**	**67 000**
CƏMİ	**—**	**—**	**—**	**1 325 450**	**1 334 000**

KÖHNƏLMİŞ QALIQ

12 aydan çox hərəkətsiz. Uçotda 67 000, realizə dəyəri 23 450, düzəliş 65 %.

NƏTİCƏ

Bazar qiymətləri artıb, lakin köhnəlmiş qalıq bunu üstələyib. Xalis nəticə 1334000 – 1325450 = 8 550 AZN.

Nəticələrin uzlaşdırılması

Kateqoriya	Metod	Uçot dəyəri	Ədalətli dəyər	Fərq	Fərq %
Hazır məhsul	Satış qiyməti minus	1 450 000	1 780 000	+330 000	+22,8 %
Bitməmiş istehsal	Satış qiyməti minus	850 000	834 600	(15 400)	−1,8 %
Xammal və materiallar	Əvəzetmə dəyəri	1 334 000	1 325 450	(8 550)	−0,6 %
Köhnəlmiş qalıq düzəlişi	Realizə dəyəri	(134 000)	(134 000)	—	—
CƏMİ	—	**3 500 000**	**3 806 050**	**+306 050**	**+8,7 %**

EHTİYATLARIN ƏDALƏTLİ DƏYƏRİ 31.12.2025 — **3 806 000 AZN**

Yuvarlaqlaşdırma 0,001 %. Nəticə tək məbləğ kimi verilir, giriş göstəricilərinin əksəriyyəti müşahidə oluna biləndir və qeyri-müəyyənlik aşağıdır. Həssaslıq təhlili 6-cı bölmədə.

Həssaslıq təhlili

Hansı ehtimal nəticəyə nə qədər təsir edir

Parametr	Baza	Dəyişmə	Nəticə, AZN	Təsir
Satış qiyməti	**2 000 000 / 1 300 000**	**−5 %**	**3 640 550**	**−4,3 %**
Satış qiyməti	**2 000 000 / 1 300 000**	**+5 %**	**3 971 550**	**+4,3 %**
Brutto marja	24,0 %	20,0 %	3 862 750	+1,5 %
Brutto marja	24,0 %	28,0 %	3 749 350	−1,5 %
Satış səyinin payı	25 %	35 %	3 726 850	−2,1 %
Satış xərcləri	5,0 %	7,0 %	3 740 050	−1,7 %
Köhnəlmə düzəlişi	65 %	85 %	3 792 650	−0,4 %

Ən həssas parametr satış qiymətidir. Qiymətin 5 % dəyişməsi nəticəni 4,3 % dəyişir. Digər parametrlərin təsiri 2 %-dən aşağıdır.

Step-up və onun sonrakı təsiri

Sifarişçiyə verilən izah

Göstərici	Kəmiyyət	İzah
Ümumi step-up	306 050 AZN	Ədalətli dəyər ilə uçot dəyəri arasındakı fərq
Ehtiyatın orta dövriyyəsi	74 gün	Registr və satış tarixçəsi üzrə
Gözlənilən tam dövriyyə	2,5 rüb	Ehtiyatın tam yenilənməsi
Maya dəyərinə əlavə, 1-ci rüb	= 122 420 AZN	Step-upun 40 %-i
Maya dəyərinə əlavə, 2-ci rüb	= 107 118 AZN	Step-upun 35 %-i
Maya dəyərinə əlavə, 3-cü rüb	= 76 512 AZN	Qalan 25 %
Brutto marjaya təsir, 1-ci rüb	**= 122420/5200000= −2,4 f.b. (% bəndi)**	**Rüblük satış həcmi 5,2 mln AZN qəbul edilməklə (Sifarişçinin proqnozu)**

Bu, əməliyyat göstəricilərinin pisləşməsi deyil, mühasibat effektidir. Ehtiyat tam dövr etdikdən sonra marja normal səviyyəyə qayıdır. Sifarişçinin maliyyə direktoru bunu investorlara əvvəlcədən izah etməlidir.

Ehtimallar, məhdudiyyətlər və açıqlamalar

EHTİMALLAR

- Sifarişçinin təqdim etdiyi registr tamdır
- Satış qiymətləri qiymətləndirmə tarixində qüvvədədir
- Tamamlama xərcləri texnoloji xəritəyə uyğundur
- Ehtiyat üzərində yüklülük yoxdur
- Fəaliyyət davam etdirilir

MƏHDUDİYYƏTLƏR

- Tam inventarizasiya aparılmayıb - seçmə yoxlama
- Materialların keyfiyyət ekspertizası aparılmayıb
- Satış qiymətləri sifarişçinin məlumatıdır
- Köhnəlmə düzəlişi peşəkar mülahizəyə əsaslanır
- Baxış tarixi qiymətləndirmə tarixindən sonradır

MƏCBURİ AÇIQLAMALAR

Dəyər bazası	Ədalətli dəyər IFRS 13, üçüncü səviyyəli girişlər üstünlük təşkil edir
Mənfəət bölgü üsulu	Xərc nisbəti üsulu - 25 % satış, 20 % tamamlama
Müstəqillik	Qiymətləndiricinin obyektə və tərəflərə marağı yoxdur
Haqq	Xidmət haqqı qiymətləndirmənin nəticəsindən asılı deyil

TƏLİMİN YEKUNU

Beş məqam yadda qalmalıdır

1	**Uçot dəyəri ədalətli dəyər deyil**	IAS 2 maya ilə ölçür, IFRS 3 ədalətli dəyərlə. Fərq real və ölçülə biləndir.
2	**Üç mərhələ - üç düstur**	Xammal əvəzetmə ilə, bitməmiş istehsal beş element çıxmaqla, hazır məhsul iki element çıxmaqla.
3	**Mənfəət payı yalnız qalan səyə aiddir**	Satıcının artıq gördüyü iş dəyərin içindədir və çıxılmır.
4	**NRV testi mövqe üzrə aparılır**	Cəmi üzrə test silinməni gizlədir.
5	**Step-up izah edilməlidir**	Alıcının növbəti rüblərdəki marjasına təsir edir və bu, hesabatda göstərilir.

Praktik tapşırıqlar

Tapşırıqlar «MetalTex» MMC şərti müəssisəsi üzrə vahid məsələni təşkil edir: birləşmə tarixi 30 iyun 2026-cı il, alıcı ehtiyatları ədalətli dəyərlə tanımalıdır. Hesablamaları ardıcıl aparın, sonuncu tapşırıq əvvəlkilərin nəticəsindən istifadə edir.

Tapşırıq 1. Hazır məhsul

Göstərici	Kəmiyyət
Gözlənilən satış qiyməti	850 000 AZN
Satış və bölüşdürmə xərcləri	satışın 6,0 faizi
Brutto mənfəət marjası	22,0 faiz
Satış səyinin payı	ümumi marjanın 30,0 faizi
Uçot dəyəri	640 000 AZN

Tələb olunur: hazır məhsulun ədalətli dəyərini və step-up hesablayın. Hesablamanı addımlarla göstərin.

Tapşırıq 2. Bitməmiş istehsal

Göstərici	Kəmiyyət
Tamamlanmış məhsulun satış qiyməti	600 000 AZN
Tamamlama xərcləri	145 000 AZN
Satış və bölüşdürmə xərcləri	satışın 6,0 faizi
Brutto mənfəət marjası	22,0 faiz
Tamamlama səyinin payı	ümumi marjanın 24,2 faizi
Satış səyinin payı	ümumi marjanın 30,0 faizi
Uçot dəyəri	360 000 AZN

Tələb olunur: ədalətli dəyəri hesablayın və nəticənin uçot dəyərindən yuxarı, yoxsa aşağı olduğunu izah edin.

Praktik tapşırıqlar. Davamı

Tapşırıq 3. Xammal və köhnəlmiş qalıq

Göstərici	Kəmiyyət
Metal məmulat, miqdar	150 ton
Cari bazar qiyməti	1 750 AZN/ton
Gətirilmə xərci	4,0 faiz
Həmin materialın uçot dəyəri	268 000 AZN
Köhnəlmiş qalığın uçot dəyəri	40 000 AZN
Köhnəlmiş qalığın anbarda qalma müddəti	14 ay
Dövriyyə testi üzrə tətbiq ediləcək düzəliş	60,0 faiz

Tələb olunur: xammalın ədalətli dəyərini hesablayın; köhnəlmiş qalığı ayrıca göstərin; kateqoriya üzrə ümumi fərqi müəyyən edin.

Tapşırıq 4. Xalis satış dəyəri testi

Mövqe	Maya dəyəri	Satış qiyməti	Tamamlama	Satış xərci
Məhsul A	52 000	66 000	yoxdur	3 300
Məhsul B	41 000	43 000	yoxdur	2 150
Məhsul C	18 000	15 000	yoxdur	750
Yarımfabrikat D	26 000	44 000	15 000	2 200

Tələb olunur: hər mövqe üzrə xalis satış dəyərini, uçot dəyərini və silinməni hesablayın. Sonra cəmi üzrə xalis satış dəyərini maya dəyəri ilə müqayisə edin və nəticəni şərh edin.

Tapşırıq 5. Step-up və marjaya təsir

Birinci, ikinci və üçüncü tapşırıqların nəticələrindən istifadə edin. Rüblük satış həcmi 2 400 000 AZN, step-upun rüblər üzrə bölgüsü 50, 30 və 20 faizdir.

Tələb olunur: ümumi step-upu hesablayın; hər rüb üçün maya dəyərinə əlavəni və brutto marjaya təsiri faiz bəndi ilə göstərin; nəticəni sifarişçinin maliyyə direktoruna iki cümlə ilə izah edin.

Test sualları

Hər sualda bir düzgün cavab var.

№	Sual	Variantlar
1	Hazır məhsulun ədalətli dəyəri hesablanarkən ümumi brutto mənfəətin hansı hissəsi çıxılır?	a) tam mənfəət; b) yalnız satış səyinə düşən hissə; c) yalnız istehsal səyinə düşən hissə; d) mənfəət çıxılmır
2	Xammal üçün əsas metod hansıdır?	a) satış qiyməti minus; b) cari əvəzetmə dəyəri; c) maya dəyəri; d) gəlir yanaşması
3	Xammalda mənfəət payı nə üçün çıxılmır?	a) qanunla qadağandır; b) xammalın marjası yoxdur; c) nə alıcı, nə satıcı hələ dəyər yaratmayıb; d) mühasibat belə tələb edir
4	Bitməmiş istehsalda neçə element çıxılır?	a) iki; b) üç; c) dörd; d) beş
5	IAS 2 üzrə ehtiyatlar hansı göstərici ilə ölçülür?	a) ədalətli dəyər; b) maya dəyəri və xalis satış dəyərinin aşağısı; c) satış qiyməti; d) əvəzetmə dəyəri
6	Xalis satış dəyəri testi necə aparılır?	a) cəmi üzrə; b) kateqoriya üzrə; c) mövqe üzrə; d) anbar üzrə
7	Maya dəyərinə aşağıdakılardan hansı daxil edilmir?	a) alış qiyməti; b) emal xərcləri; c) satış xərcləri; d) hazır vəziyyətə gətirmə xərcləri
8	Step-up nədir?	a) qiymət artımı; b) ədalətli dəyərlə uçot dəyəri arasındakı müsbət fərq; c) marja artımı; d) silinmə
9	Step-up alıcının hesabatlarına necə təsir edir?	a) pul axınını azaldır; b) ilk rüblərdə brutto marjanı azaldır; c) gəliri artırır; d) təsiri yoxdur
10	Köhnəlmiş qalıq necə aşkarlanır?	a) uçot məlumatından; b) dövriyyə testi ilə; c) sifarişçinin bəyanatı ilə; d) inventarizasiya aktından
11	Konsiqnasiya malı ilə bağlı əsas sual hansıdır?	a) metodoloji; b) hüquqi, yəni kimin balansındadır; c) texniki; d) vergi
12	Əsas vəsaitə aid ehtiyat hissələri hansı standartla ölçülür?	a) IVS 230; b) IVS 300; c) IAS 2; d) IAS 41
13	Ehtiyatın ədalətli dəyəri uçot dəyərindən aşağı ola bilərmi?	a) xeyr; b) bəli, xüsusilə bitməmiş istehsalda; c) yalnız xammalda; d) yalnız silinmə halında
14	Brutto marjanın 24 faizdən 21,6 faizə düşməsi necə ifadə edilir?	a) 2,4 faiz azalma; b) 2,4 faiz bəndi azalma; c) 10 faiz bəndi azalma; d) 24 faiz azalma
15	Mənfəətin bölgü üsulu dəyişdikdə nəticə nə qədər dəyişə bilər?	a) dəyişmir; b) 1 ilə 2 faiz; c) 10 ilə 20 faiz; d) 50 faizdən çox

AZƏRBAYCAN
QİYMƏTLƏNDİRİCİLƏR
PALATASI

Təşəkkür edirəm

Materiallar

IVS 230 tam mətni, AQP QS 15 layihəsi, 18 bəndlik yoxlama siyahısı
Məlumat sorğusu şablonu, işlənmiş hesabat, praktik tapşırıqlar və test sualları